UOT 781

**İmran Şıxəliyev**
**AMEA-nın Memarlıq və**
**İncəsənət İnstitunun doktorantı**
**AZ1073, Bakı ş., H.Cavid pr., 115**
**E-mail: imranshikhaliyev@gmail.com**

# "AZƏRBAYCAN MƏQAMLARI ARASINDA QOHUMLUQ MÜNASİBƏTLƏRİ" SİLSİLƏSİNDƏN. ÇAHARGAH MƏQAMI

**Xülasə**: Çahargah məqamının inteqrasiya xüsusiyyətləri onun digər məqamlarla əlaqə yaratmasına əsas verir. Ümumi şöbələr vasitəsilə məqamlararası əlaqələr qanunauyğun şəkildə olur. Çahargah məqamı ilə digər məqamlar arasında olan münasibətlər bütün qohumluq dərəcələri ilə müəyyənləşir. Rast və şur məqamlarından başqa digər bütün məqamlar Çahargah məqamı ilə qohumluq münasibətindədirlər. Bəzi məqamlara nisbətən Çahargah az inteqrsiya xüsusiyyətlərinə malik olan məqamlardandır.

**Açar sözlər**: Çahargah, Muğam, şöbə, məqam, modulyasiya, inteqrasiya, qarşılıqlı münasibətlər.

Azərbaycan məqamlarının qohumluq münasibətlərinin ümumi xüsusiyyətləri haqqında "Konservatoriya" jurnalı № 1(43), Bakı-2019, səh. 4-9 -da geniş məlumat verilmişdir. O yazının ardı olaraq azərbaycan xalq musiqisinin əsasını təşkil edən hər bir məqam ayrı ayrılıqda təhlil olunacaq və onun digər məqamlarla əlaqələri və qohumluq münasibətləri araşdırılacaq. Bu məqaləmiz çahargah məqamı haqqında olacaq.

"Çahargah" geniş diapazona malik Azərbaycanın muğam dəstgahlarından biridir. Ü.Hacıbəylinin təbirincə desək, "Çahargah" dinləyicidə bədii-ruhi cəhətdən həyəcan və

ehtiras hissi oyadır. Çahargah sözü iki sözün birləşməsindən əmələ gəlmişdir. “Çahar” – dörd, “gah” isə məkan, dayanacaq deməkdir. Yəni dördüncü dayanacaq. Bu qəbildən olan digər muğam adlarına da rast gəlmək olar. Məsələn. “Dügah”, “Segah”, “Pəncgah” və s. Qədim dövrün alimləri “Çahargah”ın göy gurultusu ilə bağlı yarandığını iddia edirlər. “Çahargah” muğam-dəstgahı da digər iri həcmli dəstgahlar kimi ümumi dramaturji prinsiplərə uyğun olaraq bəmdən-zilə prinsipi ilə inkişaf edir.

Çahargah adına yalnız muğam dəstgahları arasnda deyl, həmçinin Azərbaycan musiqi nəzəriyyəsinin əsas məqamları sirasında da rast gəlmək olar. “Çahargah” muğamı və bu muğam ilə bağlı bütün musiqi nümunələri çahargah məqamına əsaslanır.

Tərtib etdiyimiz cədvəldə re mayəli çahargah məqamından digər məqamlara mümkün olan bütün keçidlər göstərilmişdir: Bəzi məqamlara nisbətən Çahargah az inteqrsiya xüsusiyyətlərinə malik olan məqamlardandır.

| İlkin muğam | sıra № | Son muğam | Vasitəçi muğam şöbəsi | Modulyasiya dərəcəsi |
|---|---|---|---|---|
| | 1. | Lya Çahargah | Hasar = Mayə | I dərəcəli |
| | 2. | Sol Çahargah | Mayə = Hasar | I dərəcəli |
| | 3. | Sol Bayatı Şiraz | Manəndi müxalif = Mayə | II dərəcəli |
| **Re** | 4. | Sol Çahargah | Bəstə Nigar (orta) = Mayə | II dərəcəli |
| mayəli | 5. | Lya Çahargah | Mayə = Bəstə Nigar (orta) | II dərəcəli |
| | 6. | Si b Bayatı Şiraz | Manəndi müxalif = Bayatı İsfahan | III dərəcəli |
| **ÇAHARGAH** | 7. | Si segah | Manəndi müxalif = Manəndi Müxalif | III dərəcəli |
| | 8. | Re Şüştər | Manəndi müxalif = Feli | III dərəcəli |
| | 9. | Do Hümayun | Manəndi Müxalif = Feli | III dərəcəli |
| | 10. | Mi Bayatı Şiraz | Manəndi Müxalif=Mayeyi Bayatı Şiraz-Bayatı İsfahan | IV dərəcəli |

1. Çahargah məqamından I dərəcəli qohum məqama “Hasar” şöbəsi vasitəsi ilə keçid etmək olar. Bildiyimiz kimi, “Çahargah” muğamının əsas şöbələrindən və mayədən kvinta yuxarı münasibətdə olan “Hasar”ın məqam əsasını da çahargah təşkil edir. Bu da bizə əsas verir ki, eyni məqam daxilində keçid edək. “Hasar” şöbəsinin istinad pərdəsini mayə pərdəsi kimi qəbul etsək, onda biz re mayəli çahargah məqamından lya mayəli çahargah məqamına modulyasiya etmiş olarıq. (I dərəcəli qohum məqamlar)





2. Hasar şöbəsi vasitəsi ilə daha bir modulyasiya etmək mümkündür. Bu dəfə biz “Mayə” şöbəsinin istinad pərdəsini “Hasar” şöbəsinin istinad pərdəsinə bərabər edirik. Nəticədə re mayəli çahargah məqamından kvinta aşağı məsafədə olan yeni sol mayəli çahargah məqamına keçid edə bilərik. (I dərəcəli qohum məqamlar)



3. Qeyd etdiyimiz kimi, Ü.Hacıbəyli milli musiqi nəzəriyyəmizin açarı olan “Azərbaycan xalq musiqisinin əsasları” elmi əsərində çahargah məqamından yazarkən burada “Mayə”, “Bəstə Nigar”, “Manəndi müxalif’, “Hasar”, “Müxalif” və “Mənsuriyyə” şöbələrini qeyd edir və melodiya bəstələmək qaydalıarında göstərir ki, “Manəndi müxalif” şöbəsi mayə pərdəsindən xalis kvarta yuxarıda qərar tutmuşdur. Düzdür, müasir muğam proqramlarında “Çahargah” muğamının tərkibində bu şöbə daxil edilməmişdir. Lakin bir çox xalq musiqisi nümunələrində və bəstəkar əsərlərində bu şöbəyə istinad edilməsinin şahidi oluruq. Bunu əsas tutaraq bizim işimizdə “Manəndi müxalif” şöbəsindən keçid kimi istifadə olunacaq. Bu şöbə ilə çahargah məqamının inteqrasya xüsusiyyətləri daha da zənginləşmiş olur. Çünki, əsası bayatı şiraz məqamında olan bu şöbə vasitəsi ilə bir çox digər məqamlara keçid etmək mümkündür.

İlk qohum məqam kimi, bayatı şiraz məqamını göstərmək olar. Bayatı şiraz məqamına əsaslanması, “Manəndi müxalif” şöbəsini “Mayə Bayatı Şiraz” şöbəsi ilə eyniləşdirməklə re mayəli çahargah məqamından sol mayəli bayatı şiraz məqamına inteqrasiya etmək mümkündür. (II dərəcəli qohum məqamlar)



4. “Çahargah” muğamının əsas şöbəsi olan “Bəstə Nigar”ın melodik quruluşunda çox maraqlı guşə ifa olunur. Bu guşə bir çox ifaçılar tərəfindən geniş istifadə olunur. “Bəstə nigar” şöbəsində ifa olunan bu guşəni Azərbaycan muğam ensiklopediyasının internet versiyasında bütün muğam və şöbə nümunələrini tarda ifa edən, Azərbaycanın əməkdar müəllimi Valeh Kərimov “Şikəsteyi-muyə” adlandırır. Bu guşənin

melodiyasında maraqlı xüsusiyyət odur ki, “Cahargah” muğamının tərkibində çahargah məqamına əsaslanan daha bir fərqli mayəli müvəqqəti istinad pərdəsi əmələ gətirir. Məhz “Bəstə Nigar” şobəsinin bu xüsusiyyətinə görə (“Bəstə Nigar” şöbəsinin “Şikəsteyi Muyə” guşəsi = “Mayə Çahargah” şöbəsi) re mayəli çahargah məqamından sol mayəli çahargah məqamına modulyasiya etmək olar. (II dərəcəli qohum məqamlar)




5. Yuxarıda qeyd olunan bərabərliyin əksi ilə daha fərqli mayəli çahargah məqamına keçid yarada bilər. “Mayə Çahargah” şöbəsini “Bəstə Nigar” şöbəsinin “Şikəsteyi Muyə” guşəsinə bərabər etməklə re mayəli çahargah məqamından xalis kvarta intervalı aşağı münasibətdə lya mayəli çahargah məqamı ilə əlaqə yaratmaq olar. (II dərəcəli qohum məqamlar)




6. Daha fərqli mayəli bayatı şiraz məqamına modulyasiya etmək üçün yenə də “Manəndi müxalif” şöbəsindən istifadə etmək olar. Bu dəfə “Manəndi müxalif” şöbəsi “Bayatı Şiraz” muğamının “Bayatı İsfahan” şöbəsi ilə bərabərləşdiriləcək. Əgər “Bayatı İsfahan” şöbəsinin də eyni məqama əsaslandığını, muğamın mayə pərdəsindən kiçiktersiya aşağı məsafədə yerləşdiyini və melodik xəttin inkişafı nəticəsində mayə şöbəsinə keçdiyini və nəzərə alsaq, onda re mayəli çahargah məqamından si bemol mayəli bayatı şiraz məqamına keçidin baş verməsinin şahidi oluruq. (III dərəcəli qohum məqamlar)






7. “Manəndi müxalif” həmçinin segah məqamına keçid üçün əlaqə yaradan bir şöbə kimi də çıxış edir. Burada hər iki muğamın “Manəndi müxalif” şöbələri bərabərləşdirilir və nəticədə re mayəli çahargah məqamının mayə pərdəsindən kiçik tersiya aşağı münasibətdə olan si mayəli segah məqamına keçid baş verir. (III dərəcəli qohum məqamlar)




8. Ü.Hacıbəylinin çahargah məqamında qeyd etdiyi “Manəndi müxalif” şöbəsi həmçinin şüştər məqamına da keçid rolunu oynaya bilər. Bayatı Şiraz məqamına əsaslanan “Manəndi müxalif” şöbəsinin eyni məqam əsaslı “Feli” şöbəsi ilə eyniləşməsi re mayəli çahargah məqamından re mayəli şüştər məqamına çox axıcı bir modulyasiya yaradır. Maraqlı odur ki, “Manəndi müxalif” ilə “Feli” şöbələrinin aid olduğu məqamın mayəsindən xalis kvarta yuxarı məsafədə yerləşməsi, hər iki məqamı eyni mayə pərdəsində birləşdirir. (III dərəcəli qohum məqamlar)




9. Bildiyimiz kimi professor M.C.İsmayılovun tərtib etdiyi II növ Hümayun məqamı ilə şüştər məqamının səs düzümü eyni pərdələrdən təşkil olunmuşdur. Bundan başqa “Hümayun” muğamının tərkibində “Şüştər” muğamının bir çox şöbələri səslənir. Bu kimi xüsusiyyətlər bizə əsas verir ki, re mayəli çahargah məqamından do mayəli

Hümayun məqamına “Manəndi müxalif = Feli” formulu ilə modulyasiya edək. (III dərəcəli qohum məqamlar)




10. Sonuncu keçid mi mayəli bayatı şiraz məqamınadır. Burada keçid şöbə kimi “Mayə Bayatı Şiraz” istifadə olunacaq. İlk əvvəl “Çahargah” muğamında olan “Manəndi müxalif” şöbəsi eyni məqam əsaslı “Mayə Bayatı Şiraz” şöbəsinə bərabər tutulacaq. Sonra isə “Bayatı Şiraz” muğamının “Bayatı İsfahan” şöbəsinə keçid olacaq. “Bayatı İsfahan” şöbəsinin aid olduğu muğamın mayə pərdəsindən kiçik tersiya aşağı məsafədə qərarlaşdığını nəzərə alsaq, onda re mayəli çahargah məqamından mi mayəli bayatı şiraz məqamına modulyasiyanın baş verdiyinə əmin olarıq. (IV dərəcəli qohum məqamlar)




Nəticədə qeyd edək ki, Çahargah məqamı digər məqamlara nisbətən daha az inteqrasiya olunur. Bu da ondan irəli gəlir ki, bu məqamın Rast və Şur kimi geniş inteqrasiya xüsusiyyətinə malik olan məqamlarla heç bir münasibəti yoxdur.Buna baxmayaraq, Çahargah məqamı digər məqamlarla bütün qohumluq dərəcələrinə malikdir.

**Ədəbiyyat**:


1. Fərhadova S.M. Azərbaycan muğam dəstgahlarının tarixi kökləri. Bakı: E.İ.F. 2018,198 s
2. Hacıbəyov Ü.Ə Azəbaycan xalq musiqisinin əsasları. Bakı:Yazıçı 1985. 151 s
3. Hacıbəyov Ü.Ə Seçilmiş əsərələri Bakı:Yazıçı. 1985 650 s

4. Hacıbəyov Ü.Ə Azərbaycan türk musiqisi haqqında // “Na rubeje vostoka” jurnalı № 3. 1929
5. Həsənova C.İ. Ü.Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları Bakı:Mars-print. 2009 320 s
6. Həsənova C.İ Azərbaycan musiqisinin məqamları Bakı:Elm və təhsil 2012. 231s
7. İsmayılov M.C Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dairelmi – metodik oçerklər. Bakı:Elm 1991. 117 s
8. İsmayılov M.C Azərbaycan xalq musiqisinin janrları Bakı: İşıq. 1984. 100 s
9. İsmayılov M.C Azərbaycan xalq məqamlarının qohumluq münasibəti haqqındaАГК им. У. Гаджибекова. Ученые записки, серия XIII №9 Баку, 1972 , 98 s
10. Nəcəfzadə A.İ. Məmmədəliyev V.M Muğam Bakı: Ekoprint, 2017, 160s
11. Zöhrabov R.F. Muğam Bakı: Az.Dövlət nəşriyyatı, 1991, 218 s
12. Zöhrabov R.F “Çahargah” muğam dəstgahının nəzəri əsasları. Bakı: 2000, 130 s
13. Zöhrabov R.F “Rast” muğam dəstgahının nəzəri əsasları. Bakı: 2002, 146 s

**Имран Шихалиев**

**Из цикла «Родственные связи между ладами Азербайджана». Лад чахаргях**

**Резюме**

Взаимодействие чахаргях с другими основными ладами, происходят на основе определенных принципов. В процессе чего учитываются все степени родства ладов. Однако автор приходит к выводу, что в сравнении с другими ладами чахаргях обладает малой степенью интеграционности.

**Ключевые слова**: чахаргах, мугам, раздел, лад, модуляция, интеграция, взаимные отношения.

**Imran Shikhaliyev**

**From the cycle "Kinship between the frets of Azerbaijan." Mode Chahargah**

**Summary**

The integration features of the fret chargah create the prerequisites for its interaction with other frets. The interaction between the main frets is based on certain principles. The interaction of the frets of the charghs and other modes is determined taking into account all degrees of kinship. The fret chargah demonstrates kinship with all frets except rast and shur. However, in comparison with other frets, the fret chargah does not have such an amount of opportunity for integration.

**Keywords**: Chahargah, mugam, section, mode, modulation, integration, mutual relations.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.04.2019 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.04.2019Məqalənin çapa qəbul olunma tarixi: 13.05.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoruSəbinə Mehdiyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**